# BƏKİR ÇOBANZADƏNİN BƏDİİ NƏSRİ VƏ PUBLİSİSTİKASI



*Mahmud ALLAHMANLI,*
*filologiya elmləri doktoru,*
*professor*

Bəkir Çobanzadə yaradıcılığında araşdırılmalı problemlərdən birisi bədii nəsri və publisistikası ilə bağlı məsələlərin aydınlaşmasıdır. Çünki ədibin zəngin ədəbi irsi poeziya, ədəbiyyatşünaslıq, folklorşünaslıq, dilçilik baxımından ciddi yanaşmaları zəruri etdiyi kimi, bədii nəsri də bütünlükdə B.Çobanzadə fenomeninə aydınlıq gətirmək üçün bir tərəfdir. Ümumiyyətlə, XIX əsr boyu gedən proseslər təkcə, Qafqaz səviyyəsində deyil, həm də Rusiya və Avropa miqyasında ciddi yeniləşmələrlə, tarixi-mədəni mənzərənin dinamik axarı ilə səciyyələnir. Tiflis bir mədəniyyət mərkəzi olaraq ciddi inkişafla, elmin, mədəniyyətin, ədəbiyyatın yeni uğurları, mətbuatın, məktəblərin, rəngarəng ədəbi mühitlərin özünəməxsusluqları ilə müəyyənləşir. Qoru müəllimlər seminariyasında, Rusiyanın, Avropanın, Türkiyənin və s. ayrı-ayrı təhsil ocaqlarında oxuyub qayıdan ziyalılar müxtəlif sahələrdə çalışmaqla gərəkli işlərə imza atdılar. A.Bakıxanov, M.Ş.Vazeh, İ.-Qutqaşınlı, M.F.Axundov, M.Şahtaxtlı, S.Ə.Şirvani, H.Zərdabi, M.Mahmudbəyov, C.Ünsizadə, A.Şaiq, Ü.Hacıbəyov, C.Məmmədquluzadə, E.Sultanov, S.S.Axundov, R.Əfəndiyev, A.-Səhhət, F.Ağazadə, S.Mümtaz, Y.V.Çəmənzəminli, V.Xulufli, H.Zeynallı və s. onlarla ziyalılar elmin, mədəniyyətin, təhsilin müxtəlif sahələrində çalışmaqla özlərinin töhfələrini vermişlər. B.Çobanzadə də məhz bu intibah dalğalarında formalaşmış ensiklopedik zəkalardandır. Onun pedaqoji sahədə fəaliyyəti, gördüyü işlər, dilçiliyin, ədəbiyyatın, forklorşünaslığın müxtəlif sahələri ilə bağlı apardığı monoqrafik araşdırmalar, eləcə də şair, yazıçı, publisist kimi fəaliyyəti hamısı mühitin, tarixi reallığın zərurəti kimi ortaya çıxmışdır.

B.Çobanzadənin elmi-pedaqoji, nəzəri-metodoloji görüşləri, poeziyası ilə bağlı vaxtaşırı müyyən təhlillər aparmağa çalışmışam. Nəsri və poeziyasının mahiyyətində olanlar isə bir tərəf kimi ədibin dünyagörüşünü, dövrə, cəmiyyətə münasibətini aydınlaşdırmaq üçün mühüm istiqamətlərdən biridir. Onu da əlavə edək ki, B.Çobanzadənin poeziya və nəsr yaradıcılığı ilə balı əlimizdə olan örnəklər təxminən dörd illik zaman müddətini (1917-1920) əhatələyir. "İki dərviş", "Qaradinməz Cəlil", "Xırmanda bir şair", "On dörd yaşımda", "Uğurlu yollar", "Bir neçə günahım" hekayələri müəllifin ilk qələm təcrübələri olaraq səciyyələnir. Əlbəttə burada klassik sənət nümunəsi, bədii nəsrin yüksək örnəkləri olmadan söhbət getmir. Sadəcə olaraq əsas olan və qarşımızda məqsəd kimi işarələdiyimiz məsələ ədibin yaradıcı dünyagörüşünü, sənətkar şəxsiyyətini və Azərbaycan ədəbi-mədəni mühitinin, eləcə də türk xalqlarında formalaşdırdığı təsəvvürün nələrlə səciyyələndiyini aydınlaşdırmaqdır. Çünki XX əsrin qaynarlığında hər bir ziyalının ədəbi-mədəni mühitdə öz yeri və məqamı var, B.Çobanzadə də ensiklopedik zəka sahibi olaraq gördüyü gərəkli işlərlə adı ilə bağlanacaq böyük bir zirvəni fəth etmişdir. Bir növ adını türk xalqlarının ədəbiyyat, mədəniyyət tarixinə şəxsiyyəti, canlı fəaliyyəti ilə yazmışdır.

Poeziyasında olduğu kimi, bədii nəsrində də ədibin yaradıcı şəxsiyyəti bir bütöv olaraq gözlərimiz qarşısında canlanır. Hekayələrin mətn informasiyası, bədii sistemin ortaya qoyduğu təsəvvür, əhatələdiyi mövzu rəngarəngliyi müxtəlif aspektlərdə yanaşmaları gərəkli edir. Çünki onun say və həcm etibarı ilə elə də çox olmayan hekayələri, publisistik məqalələri ("Macar qardaşlar", "Yeni oyanan tatarıq", "Bir tatar gəncinin ana yurdu: Krım" və s.) problematikası və dil, üslub zənginliyi, mətn bütövlüyü ilə sistemli yanaşmaları faktlaşdırır. B.Çobanzadə istedadından, yaradıcı qabiliyyətinin imkanlarından və həm də ciddi vətəndaş mövqeyinin aydınlığından xəbər verir. Sonrakı yaradıcı fəaliyyəti, elmi və pedaqoji fəaliyyəti haqqında təsəvvür formalaşdırır, həmin zənginliyə gedişin genetik sistemini ortaya qoyur. "Ehtimal ki, ədib sonralar coşqun elmi fəaliyyətlə məşğul olduğu üçün, çox az şeir yazmış, hekayə yazmağa isə ümumən vaxt tapa bilməmişdir. İlk qələm təcrübələri olmasına baxmayaraq, onun hekayələri mövzu və işlənmə baxımından çox bitkin təsir bağışlayır. Bu əsərlərin zahiri özəlliyi odur ki, ədib hadisənin birbaşa təhkiyəsinə keçməzdən əvvəl epiqrafa bənzəyən uzun bir giriş verir. Diqqətli oxucu buradan başa düşür ki, çox qəmli bir olayla qarşılaşacaq. Hekayələrin ikinci özəlliyi onların məzmununa aiddir. Onlar mahiyyətcə novellaya daha yaxındır, bir qədər sərt, hətta amansız şəkildə qələmə alınmışdır. Bu da yazıçının öz qarşısına qoyduğu məqsədlə əlaqədardır" (8, 14-15). Təkrar qeyd edək ki, B.Çobanzadənin 20-ci illərdən sonrakı dövrdə yaradıcılığının bütün faktları taleyi kimi bir qədər qaranlıqlarla görünür. Daha doğrusu, repressiya həyatı yaşaması onun həm də əsərlərinin eyni aqibətlə qarşılaşması, itkilərlə xarakterizə olunur. Bu, təkcə B.Çobanzadəyə aid məsələ olmayıb bütünlükdə ziyalı mühitinin yaşadığı hadisələrdir. Heç şübhəsiz, görkəmli türkoloq, ədəbiyyatşünas B.Çobanzadə yaradıcılığı da müəyyən itkilərin ola biləcəyini diqqət önünə gətirir.

Bədii təsirin çoxcəhətliliyi, bədii ümumiləşdirmənin mahiyyətində olanlar bütün aspektləri ilə yaradıcı imkanlarına hesablanan məsələdir. Burada mətnin dil, ifadə imkanlarından, sintaktik fiqurların sıralanmasından onların ehtiva etdiyi məzmuna qədər əhatəli bir sistem özünə yer alır. Mətnin kompozisiya sistemi və onu qurmaq üsulları sənətkardan xüsusi yaradıcılıq imkanları, istedadını ortaya qoymaq bacarığı kimi məsələləri diqqət önünə gətirir. Məlum olduğu kimi, "ədəbiyyatın "ən yüksək növ"ünün, "incəsənətin tacı"nın - eposun lüğəti mənası - söz, rəvayət, əhvalat deməkdir. Geniş yayılan eposların - "Bilqamıs", "İliada", "Odisseya", "Manas", "Alpamış", "Eneida", "Dədə Qorqud", "Azad edilmiş Beytülmüqəddəs", "İtirilmiş cənnət", "Missiada", "Mahabharata", "Kalevala", "Roland nəğmələri" və "Edda"nın kökü məişətlə, mifik düşüncə və təfəkkürlə, keçmişdən nəşət edən bir tarixi hadisə ilə (Jan Pol Rixter) bağlı olmuşdur" (9, 280). Ümumiyyətlə, bədii düşüncə həyatı dərk və təqdimin elə qanadlı tərəfidir ki, onun mahiyyətində olanlar bütünlükdə etnosun təsəvvürlərini, məişət, əxlaq, davranış sistemlərini özündə ehtiva etmək gücü ilə yaşarlıq qazanır. Mif, rəvayət, əfsanə, nağıl, dastan və s. bu baxımdan tarixin çox dərinliklərindən günümüzə qədər daşıyıb çatdırdıqları ilə əbədiyaşarlıq qazanmışdır. Şifahi düşüncədə qəlibləşmiş bu ifadə və düşüncə modelləri sonrakı çağlarda, yazının meydana çıxdığı zamanlarda bədii nəsr üçün bir qaynaq funksiyasını yerinə yetirmişdir. Zəngin dünya bədii nəsri şifahi yaddaşda olanlardan yararlanmaqla həm də yazı mühitində yeni bir axarı müəyyənəlşdirmişdir. M.F.Axundov, R.Əfəndiyev, Ə.-Haqverdiyev, C.Məmmədquluzadə, S.Hüseyn, N.Vəzirov, N.Nərimanov, A.Şaiq, Y.V.Çəmənzəminli, S.S.Axundov, Ü.Hacıbəyov, H.K.Sanılı və başqa sənətkarların bədii nəsrə gətirdiyi rəngarənglik şifahi düşüncədən gələnlərin yazı mühitindəki dinamik mənzərisini faktlaşdırır. Ədəbiyyatnas alim, professor T.Salamoğlu "Bəkir Çobanzadə" adlı fundamental məqalə-tədqiqatında yazır: "XX əsr Azərbaycan ədəbi və mədəni fikir tarixində görkəmli türkoloq alim Bəkir Çobanzadənin əhəmiyyətli mövqeyi vardır. Onun Azərbaycandakı elmi-ədəbi fəaliyyəti keçən əsrin 20-30-cu illərinə düşür. Dilçilik və ədəbiyyatşqünaslıq sahəsində məhsuldar fəaliyyəti ilə seçilən bu alimin milli türkologiyamızın formalaşmasında həm nəzəri, həm də praktik baxımdan böyük rolu olmuşdur" (12, 120). B.Çobanzadənin ensiklopedik zəka sahibi olaraq araşdırmalarının və təhlil yazılarının, eləcə də poeziya, nəsr örnəklərinin dövründə və mühitində yaratdığı təsəvvür sonrakı mərhələdə də eyni tendensiya ilə ona olan sonsuz marağın artması ilə müşahidə olunmuşdur.

Tədqiqatlarda da göstərildiyi kimi, 300-dən artıq məqalənin, 41 monoqrafik tədqiqatın müəllifi olan Bəkir Çobanzadə yaradıcılığında hekayələrin, ümumiyyətlə, hər bir yazının öz yeri və məqamı var. Daha doğrusu, hansısa problemin həllinə, yaradıcı dünyagörüşünün ifadəsinə köklənmişdir. Şeirləri, hekayələri, publisistik məqalələri dövründə, mühitində bitib-tükənməyən məsələlərin, eləcə də etnosun mənəvi dəyərlərinin təlqin və təqdimi baxımından mövzuya çevrilmişdir. Qeyd etdiyimiz kimi, onun şeir və hekayələri yaradıcılığının ilkin dövrlərinin məhsuludur. Lakin ilk qələm təcrübəsi olmmasına baxmayaraq, yaradıcı dünyagörüşündə özünü göstərən konkretlik, hadisəyə aydın mövqe və mükəmməl yanaşma xüsusilə bir tərəf kimi maraq doğurur, bir sözlə yaradıcı üslubunu müəyyənləşdirən fakta çevrilir. Şeirlə böyük ədəbiyyata gələn ədibin sonrakı fəaliyyətinin aparıcı xəttini türkoloq, ədəbiyyatşünas, folklorşünas kimi araşdırmaları təşkil etsə də, bədii irsi şəxsiyyətin dünyagörüşünün formalaşması üçün bir mərhələ funksiyasını yerinə yetirir. Hekayələri bu baxımdan mühüm önəm kəsb edir. Onu da əlavə edək ki, "ən əski dövrlərdən hekayə geniş yayılan, həm nəsrdə, həm də nəzmdə yazılan janrlardan biri olmuş, onun ədəbi üsulları tez müəyyənləşmişdir. Çünki miladdan əvvəl ikinci əsrdə milet hekayələri yaranmış, III-IV əsrlərdə "Kəlilə və Dimnə" şifahi hekayələr formasında yayılmışdır.

Avropalılar Şərq ədəbiyyatının ənənələrindən tez istifadə etmiş, "Kəlilə və Dimnə", "Min bir gecə" sərgisindən olan əsərləri öyrənmiş, onları öz dillərinə çevirmişlər... XIV-XV əsrlərdə Avropada lirika və epik növün bəzi janrları - novella və roman erkən intibahın təzahürləri idi. Azərbaycanda intibahın mədəni və ədəbi-bədii təzahürləri özünü daha tez göstərmişdir. "Sirlər xəzinəsi"ndə iyirmi mənzum hekayə, "Məqalət" adlandırılmışdır. Azərbaycan mənzum hekayələri ən qədim dövrlərdən milli nağıl və lətifələrin bətnindən təşəkkül tapan, intibahın ilk mərhələsindən yeni məzmun və formaya düşən, poetik üsullarını erkən müəyyənləşdirən janr idi" (9, 291-292). Doğrudan da, yazılı mühitdə özünə yer alan bütün formalar öz qaynağının bu və ya digər şəkildə xalqın zəngin fölklor örnəklərindən götürmüşdür. Nağılllların da başlanğıcını, genetik kodunu xalq söyləmələri, yaddaşda olan əhvalat, rəvayət, hekayətlər təşkil etmişdir. Azərbaycan ədəbiyyatının şifahı və yazılı qollarında özünü göstərən zəngin nəsr örnəkləri bu gün möhtəşəm təcrübə ilə fundamental təsəvvür sərgiləməklə həm də ədəbi-nəzəri fikirdə çeşidli təhlillər üçün əsas olmuşdur. M.F.Axundovun, Ə.Haqverdiyevin, Y.V.Çəmənzəminlinin, N.Vəzirovun, S.S.Axundovun, A.Şaiqin, R.Əfəndiyevin, C.Məmmədquluzadənin, H.K.Sanılının, S.Hüseynin, S.M.Qənizadənin, N.Nərimanovun və başqalarınınyaratdığı yüksək nəsr nümunələri sonrakı dövr ədəbiyyat üçün bir örnək olmuşdur. M.İbrahimov, M.Cəlal, Ə.Vəliyev, S.Rəhimov, M.Hüseyn, İ.Şıxlı, İ.Hüseynov, Y.Səmədoğlu, Anar, Elçin, M.Süleymanlı, V.Nəsib və s. kimi istedadların bədii düşüncəsi məhz yüksək sənət ənənələri üzərində pərvəriş tapmışdır. Altmışıncı illər nəsri, altmışıncı illər nəsli təsəvvürü məhz həmin zəngin sənət ənənələrinin üzərində mükəmməl qənaət formalaşdırmışdır.

XX əsrin ilk onilliklərində intibah təsəvvürü formalaşdıran ədəbi-mədəni proses B.Çobanzadənin simasında şair, nasir, türkoloq, ədəbiyyatşünas, folklorşünas, publisist kimi ciddi bir zənginliyi ortaya qoyur. Yaradıcılığının ilkin mərhələsində özünü göstərən düşüncə, yanaşma və təsəvvürlər onun bütün həyatı boyu elə həyati prinsip olaraq özünü göstərir.

*(Davamı var)*